*Qədim, doğma Qobustanım*

# QOBUSTAN

*Qobustan Rayon İcra Hakimiyyətinin orqanı*

Qəzet 1992-ci ildən çıxır * **İCTİMAİ-SİYASİ QƏZET** * №002 (202) fevral 2021-ci il

# “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” adlı proqramın təsdiq olunması dövlətin idarə olunmasında strateji planlaşmanın təcəssümüdür. Bu proqramın təsdiqi risklərin azalmasına, sahələrin sürətli inkişafına, həmçinin istiqamətlər üzrə sahəvi prioritetlərin müəyyən olunmasına xidmət edir. Sözügedən strateji idarəetmə metodu, eyni zamanda ölkəmizin gələcək inkişaf mənzərəsini də müəyyən edir. Sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək Azərbaycan sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi dünyada tanındı. Ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmış, cəmiyyətdə dövlətçilik ənənələri gücləmiş, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilmişdir. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına inteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Münaqişənin həlli eyni zamanda, regionun təhlükəsizliyini və kommersiya cəlbediciliyini təmin edən strateji faktordur. Sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu və statusunu möhkəmləndirəcəkdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu. Bu Böyük Qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır. Əvvəlki dövrlərdə olduğu kimi, işğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır.

Dövlətin iqtisadi inkişafından qaynaqlanan yüksək maliyyə imkanları uzun illər makroiqtisadi sabitlik və artıma mühüm töhfə vermiş, təhlükəsizliyin təmini üçün güclü potensial yaratmışdır. Ölkədə yaşanan siyasi sabitlik, təhlükəsiz mühiti və davamlı iqtisadi inkişaf xalqın rifahını təmin edən əsas taleyüklü amillərdir. Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının ideoloji



nüvəsini təşkil edir.

Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndiriləcəkdir. Dövlətin iqtisadiyyatda rolunun bazaryönlü islahatlar vasitəsilə effektiv və səmərəli idarə olunması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləri olacaqdır. Ölkədə özəl təşəbbüslərin yaradıcı və innovativ əsaslarla inkişaf etdirilməsi iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin edəcəkdir.

Təsdiq olunmuş sənəd dövlətin növbəti 5 strateji prioritetlərini müəyyən edib:

- Dayanıqlı artan rəqabət qabiliyyətli iqtisadiyyat;
- Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
- Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
- İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
- Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi.

Qeyd edilən milli prioritetlər eyni zamanda Birləşmiş Millətlər Təşkilatının “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir. Uzunmüddətli dövrdə iqtisadi artım sağlam və tarazlı olmalıdır. Belə iqtisadi artım ölkənin davamlı inkişafı üçün möhkəm zəmin yaradacaqdır. Bu prioritetin effektiv həyata keçirilməsi üçün iki məqsəd təmin olunmalıdır: davamlı və yüksək iqtisadi artım, habelə daxili və xarici təsirlərə dayanıqlıq.İqtisadi artım vətəndaşların həyatına təsir göstərən başlıca amillərdən biridir. İqtisadiyyatı davamlı və yüksək templərlə artırmaqla ölkədə adambaşına düşən milli gəlirin yüksək səviyyəsinə nail olunmalıdır. İqtisadi artım yüksək gəlirli iş yerləri yaratmaqla həyat səviyyəsinin ilbəil yaxşılaşmasını təmin etməlidir.

Özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun başlıca mənbəyinə çevrilməsi üçün işgüzar mühit əhəmiyyətli dərəcədə yaxşılaşdırılmalıdır. Yeni və şəffaf özəlləşmə strategiyası həyata keçirilməlidir. Biznesin təşviqi mexanizmlərinin iqtisadi səmərəsi artırılmalıdır. İqtisadiyyatda uzunmüddətli investisiya resurslarının əsas mənbəyi olan kapital və sığorta bazarının inkişafı sürətləndirilməlidir.

Milli bank sektorunun dayanıqlığı təmin olunmalı, ona olan etimad yüksəlməli, real iqtisadiyyatın maliyyələşdirilməsində bankların payı artırılmalı və sahibkarlıq fəaliyyətinin inkişafına təkan verməlidir. Ölkə iqtisadiyyatına birbaşa xarici investisiyaların, o cümlədən infrastruktur sahələrinə strateji investorların cəlb olunması təmin edilməlidir. Dövlət şirkətlərinin kommersiya prinsipləri əsasında fəaliyyət göstərmələri üçün zəmin yaradılmalı, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla korporativ idarəetmə standartları tətbiq edilməli və gəlirlilik səviyyələrinin artırılması təmin olunmalıdır.

Milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın tərkib hissəsi olduğundan, xarici mühitdən təsirlənə bilir. Bu səbəbdən uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığı gücləndirilməli, makroiqtisadi sabitlik daha da möhkəmləndirilməlidir. Ölkədə makroiqtisadi sabitliyin və dayanıqlığın gücləndirilməsi məqsədilə yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivə formalaşdırılmalıdır. Yalnız şaxələnmiş iqtisadiyyat dayanıqlı ola bilər. Bunun üçün əsas məqsəd iqtisadiyyatda qeyri-neft sektorunun payının artmasına nail olmaqdır.

Xarici təsirlərə dayanıqlıq sütunlarından birini dövlətin valyuta ehtiyatları, digərini isə intizamlı borclanma təşkil edir. Xarici valyuta ehtiyatlarının dayanıqlı səviyyədə saxlanılması üçün Dövlət Neft Fondundan transfertin dövlət büdcəsində payı tədricən azaldılmalıdır. Makroiqtisadi sabitliyin əsas meyarı olan qiymətlərin aşağı və stabil olması təmin edilməlidir. Belə bir sabitlik iqtisadiyyatda gözləntiləri yaxşılaşdırmalı, əhalinin yığımlarını dəyərsizləşmədən qorumalı və investisiyaları artırmalıdır.

Davamlı və yüksək iqtisadi artım dinamik və inklüziv cəmiyyətin formalaşmasına xidmət etməli, hər bir vətəndaş öz həyatında bu inkişafı hiss etməlidir. İnsanların sosial statusundan və yaşadığı ərazidən asılı olmayaraq iqtisadi imkanlara çıxışı bərabər və ədalətli olmalıdır. Bu prioritet üç məqsəd əsasında uğurla reallaşmalıdır: inkişafdan hər bir vətəndaşın bəhrələnməsi; yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət; paytaxt və regionların tarazlı inkişafı.

Yüksək inkişaf üçün yalnız iqtisadi artım deyil, cəmiyyətin bütün üzvlərinin sosial rifahı mühüm amildir. İqtisadiyyat inkişaf etdikcə vətəndaşların sərvət və gəlirlərinin, o cümlədən əmək haqlarının artırılaraq layiqli səviyyəsi təmin edilməlidir. Ölkənin bütün təbəqələri cəmiyyətin ayrılmaz hissəsidir və dövlət onların qayğısında durur. Aparılan islahatlar ölkədə yoxsulluq səviyyəsinin minimuma endirilməsi və aşağı işsizlik səviyyəsi, eləcə də yoxsul təbəqənin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı yardımların əhatə dairəsinin genişləndirilməsi vətəndaşların sosial müdafiəsinə əlavə imkanlar yaradır.

Regionların inkişafının paytaxtın inkişaf səviyyəsinə uyğunlaşdırmaq önəmli vəzifələrdəndir. Bunun üçün regionlarda zəruri olan bütün iqtisadi və sosial infrastruktur yaradılmışdır. Regionlarda iqtisadi aktivliyin daha da artırılması üçün mövcud iş qüvvəsi və bütün resurslar tamamilə iqtisadi dövriyyəyə cəlb edilməlidir. Regionların sürətli inkişafı insanların keyfiyyətli iqtisadi imkanlara və fiziki infrastruktura çıxışı ilə müşayiət olunmalıdır. Regionların milli gəlirdə payının artırılması təmin edilməlidir.

Son dövrlərdə dünya iqtisadiyyatında müşahidə olunan inqilabi texnoloji dəyişikliklər şəraitində ölkələrarası rəqabət daha da artmışdır. Dünyada artan rəqabətə hazır olmaq üçün hər bir ölkənin prioriteti yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı əsas şərtdir. Bu prioritetin uğurla reallaşdırılması üçün növbəti üç məqsədə nail olunmalıdır: XXI əsrin tələblərinə uyğun təhsilin qurulması; yaradıcı və innovativ cəmiyyətin formalaşması; vətəndaşların sağlam həyat tərzinin formalaşması.

Azərbaycanda XXI əsrin tələblərinə uyğun olan təhsil sisteminin formalaşmasında dövlətin iqtisadi potensialının payı mütləq artırılmalıdır. Dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. Məhz təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payı davamlı şəkildə artırılmalıdır. Strateji dövrdə kompetensiya, sosial vərdişlər və bacarıqların harmoniyada inkişafına əsaslanan “ömürboyu təhsil”ə xüsusi önəm verilməlidir. Güclü təhsil hesabına yüksək peşə bacarıqlarına malik insan kapitalı yaratmaq üçün ali təhsil müəssisələrinin beynəlxalq səviyyədə keyfiyyət baxımından rəqabətədavamlığı təmin olunmalıdır.

Qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir. Bu, istilik effekti yaradan qaz emissiyasını beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə mühüm töhfə olacaqdır. Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. Dövlətin iqtisadi inkişafında Milli Prioritet kimi qəbul olunan ətraf mühitin qorunması vəzifəsi yüksək keyfiyyətli ekoloji mühitin təmin olunmasına və yaşıl enerji məkanın yaradılmasına xidmət edir.

# Erməni işğalından azad olunmuş ərazilərdə “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyası

**Erməni işğalından azad olunmuş ərazilərdə dövlətimizin başçısı cənab İlham Əliyevin birbaşa təşəbbüsü və tapşırıqları ilə “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının reallaşdırılması nəzərdə tutulur. Torpaqların bərpası prosesi artıq başlamışdır. Dağılmış bütün kəndlər bərpa ediləcək. Azad olunmuş bütün şəhərlərin baş planları hazırlanır.**



Pandemiya şəraitində dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Azərbaycan Prezidentinin təşəbbüsü dövlətimizin güc və qüdrətini nümayiş etdirir. İlk “ağıllı kənd” layihəsi Zəngilan rayonunun Ağalı kəndində icra edilir. Kənddə layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı”, alternativ enerji sahələridir.

Laçın rayonu işğaldan azad olunandan iki ay keçməmiş Güləbird kəndində su elektrik stansiyası inşa edilib. Həyata keçirilən tədbirlərin məqsədi azad olunmuş torpaqları tezliklə bərpa edərək insanların öz doğma yurd-yuvalarına qısa müddətə qayıdışını təmin etməkdir. Şuşa şəhərini elektrik enerjisi ilə təchiz etmək üçün əməli addımlara start verilib və birinci mərhələ başa çatıb. Minalardan təmizləmə işləri qısa müddət ərzində başa çatdırılacaq, dəymiş ziyan qiymətləndiriləcək. Artıq infrastruktur layihələrinə start verilib. Azad edilmiş torpaqlarda bitkiçilik, meyvəçilik, heyvandarlıq sürətlə inkişaf edəcək. Bu günə qədər suvarılmayan 100 min hektar torpaq sahələrinə su veriləcək. Beləliklə, 6-7 rayonun kənd təsərrüfatı sahəsi daha sürətlə inkişaf edəcək, məhsuldarlıq artacaq. Qısa müddət ərzində bütün imkanlar, texnika, işçi qüvvəsi səfərbər edilib və 7 min hektarda əkin işləri aparılıb. Əlavə əkin sahələri müəyyən olunduqca yenilənmiş təkliflər verilir.

İşğal altında saxlandığı vaxtlar Azərbaycan kəndləri ermənilər tərəfindən qanunsuz məskunlaşdırılsa da, onlar üçün yaradılan şərait Prezidentin ifadə etdiyi kimi, it damından fərqli olmayıb. Xaricdə yaşayan erməni diasporundan, müxtəlif fondlardan alınan yardımlar qondarma rejimin rəhbərliyi tərəfindən mənimsənilmiş, müxtəlif vədlərlə orada məskunalşdırılmış ermənilər səfalətə məhkum edilmişlər. Yollar, infrastruktur yalnız İkinci Qarabağ müharibəsində ordumuzun şanlı qələbəsindən sonra bərpa olunmağa başlamışdır. Dağıdılmış evlər erməni faşizminin törətdiyi əməllərdir. Ermənistan kapitulyasiyadan sonra 20 gün ərzində, dekabr ayının 1-nə qədər demək olar ki, bütün bu su elektrik stansiyaları, Laçın rayonu ərazisində 5, Kəlbəcər rayonu ərazisində 12 su elektrik stansiyası dağıdılıb, avadanlığı çıxarılıb. İşğalçı rejim Azərbaycana qarşı ekoloji terror törətmişdir. Mənfur düşmən işğal dövründə Tərtərçayın da suyunun qabağını kəsmişdir və bir neçə rayonumuzda yüz min hektardan çox torpaq susuz qalmışdır.

1974-cü ildə ulu öndər Heydər Əliyevin tapşırığı ilə yaradılmış Bəsitçay qoruğunun bərpasına start verilib. Qoruqda 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. İşğaldan sonra mənfur düşmən çinarların böyük hissəsini kəsib, doğrayıb, talayıb və yandırıb.Kəsilmiş ağacların yaşı təqribən 200-300 ilə bərabər idi.

Prezidentin göstərişilə azad edilmiş bütün torpaqlarda bərpa olunan enerji növləri və yerləri müəyyənləşdirilir. Azad olunmuş ərazilərin “yaşıl enerji” zonasına çevriləcəyi dəfələrlə bildirib. Azad edilmiş bütün torpaqlarda su, günəş, külək enerjisindən istifadə olunacaqdır. Zəngilan rayonunda birinci pilot “ağıllı kənd” layihəsi də məhz bərpa olunan enerji ilə təchiz ediləcəkdir. “Yaşıl enerji”nin inkişafı investiya cəlbinin əsas istiqamətlərindən biridir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin, Zəngilan, Cəbrayıl rayonlarında daha çox günəş enerjisinin böyük potensialı vardır.

Kəlbəcər və Laçında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyaları bərpa ediləcəkdir. Yalnız Kəlbəcər və Laçın rayonlarında bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. “Xudafərin” və “Qız qalası” su elektrik stansiyalarından da əlavə 120 meqavat güc alınacaqdır.

Prezident İlham Əliyevin təməlini qoyduğu, uzunluğu 100 kilometr olan Horadiz-Ağbənd dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Bu nəqliyyat infrastrukturu vətəndaşlarımızın azad olunmuş torpaqlara gediş-gəlişini asanlaşdıracaq, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcəkdir. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var.

Vətən müharibəsində doğma torpaqlarımız işğalçılardan azad edildi, düşmən torpaqlarımızdan qovuldu, ölkəmizin ərazi bütövlüyü bərpa olundu, bütün dünyaya dövlətimizin qüdrəti, xalqımızın əyilməz ruhu nümayiş olundu, ölkəmizin gələcəyi ilə bağlı strateji hədəflərə çatmaq üçün önəmli sənədlər imzalandı, qurulan dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və beləliklə, Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaqdır. Bölgə ölkələri bu yolun tikintisinə böyük maraqla yanaşırlar.

Dəmir yol infrastrukturun bərpasının, nəqliyyat layihələrinin bölgə üçün xüsusi əhəmiyyəti var. Bundan bütün bölgə ölkələri ancaq xeyir götürür. Bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilir və müharibə riskləri sıfra endirilir,Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir.

Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı yaranır. İran ilə Ermənistan arasında, Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaqdır.

Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi nəticəsində artıq Rusiya ilə Türkiyə arasında bu dəmir yolundan istifadə edilərək yüklər daşınmağa başlamışdır. Bu layihə Prezident İlham Əliyevin böyük uzaqgörənliyi və iradəsi, Azərbaycan dövlətinin maliyyəsi ilə reallaşıb.

Bakı-Tbilisi-Qars dəmir yolu ölkəmizin geosiyasi əhəmiyyətini,, iqtisadi gücünü artırır. Azərbaycan etibarlı tranzit ölkəsi kimi tranzit layihələrdən böyük maliyyə gəliri əldə edəcək, bölgədə sabitlik və sülh təmin olunacaqdır.

Bu gün də Ermənistanda revanşist qüvvələr baş qaldırmağa, Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışırlar. Biz hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Biz erməni faşizmini məhv etmişik. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Ermənistan ordusu demək olar ki, məhv edilib. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb. Müharibə zamanı düşmən ordusunun 10 min fərarisi olubdur. Azərbaycan Ordusunda bir nəfər də fərari olmayıbdır. Bu, xalqımızın, Ordumuzun yüksək mənəvi ruhunun təzahürüdür. Biz döyüş meydanında Qələbə qazandıq, torpaqları vuruşaraq işğalçılardan azad etdik. Ermənistan noyabrın 10-da kapitulyasiya aktına imza atmağa və Laçın, Kəlbəcər, Ağdam rayonlarını qaytarmağa məcbur olmuşdur. Ermənistanın və onun bəzi xarici havadarları yalnız beş rayonu Azərbaycana qaytarmaq, Dağlıq Qarabağa nə vaxtsa müstəqillik verilməsini, Kəlbəcər və Laçın rayonlarını Ermənistanın əbədi nəzarəti altında qalmasını istəyirdilər. Azərbaycan Prezidenti milli maraqlardan çıxış edərək bu təklifləri rədd etmiş, Vətən müharibəsi modelini seçmiş, ölkəmizi addım-addım qələbəyə hazırlamış və “dəmir yumruq əməliyyatı” ilə düşmənə sarsıdıcı zərbə vurmuşdur. Biz güclü iradə, cəsarət göstərərək istədiyimizə nail ola bildik.

Laçın rayonunun cənub hissəsi hərbi əməliyyatlar nəticəsində azad edilib. Səfiyan və Türklər kəndlərinin azad edilməsi ilə Azərbaycan ordusu Laçın dəhlizinə nəzarət etmək üçün hərbi plasdarm əldə edib. Laçın rayonunun işğal altına düşməsi faktiki olaraq Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdır. 1992-ci il mayın 8-də Şuşanın işğalından 10 gün keçəndən sonra Laçın rayonu işğal altına düşdü. Bu, strateji nöqteyi-nəzərdən çox böyük məğlubiyyət idi. Laçın rayonunu və Şuşanı satanlar eyni adamlardır.

AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satıb, bu xəyanəti edib, bu cinayəti törədib. AXC-nin nəzarəti altında qüvvələr olsa da, Şuşanı boşaltmışdılar. Şuşa ermənilər oraya girəndə, faktiki olaraq, boş idi, müdafiə olunmurdu. Sonra Laçın rayonunu da satmış, ondan sonra heç bir ay keçməmiş hakimiyyətə gəlmişdilər. 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşəndən sonra qorxaqcasına qaçıb gizlənib, fərarilik etmişlər. Azərbaycan xalqı bu tarixi, bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır! AXC-Müsavat cütlüyünün satdığı torpaqları biz döyüşürək azad etmişik. Torpaqları düşməndən azad edən Müzəffər Ordunun Ali Baş Komandanı kimi Azərbaycan bayrağını qaldırmışam və bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, düşməndən qisas aldıq və qayıtmışıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

# Dövlət qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq Dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə Bəhrəmov İbadət Qara oğlu “Tərəqqi” medalı ilə təltif edilib.**



# Şəhid ailələri ziyarət olundu









***Qobustan rayon İcra hakimiyyətinin başçısı Adil müəllim və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qobustan rayon bölməsinin rəisi polkovnik-leytenant İxdiyar Əhmədovla birlikdə şəhid ailələrini ziyarət etdilər.***

Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların yaxınları ilə görüşən rəsmilər onlara başsağlığı verib, səbr diləyiblər. Bildirilib ki, 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının şanlı zəfər tarixidir. Bu tarix Azərbaycan əsgərinin qanı, canı bahasına əldə edilib.

Görüşdə şəhid yaxınları övladlarının keçdikləri döyüş yolundan söz açıb, onlarla bağlı xatirələrini bölüşüblər. Vətən müharibəsində qəhrəmanlıq göstərərək qanı ilə tarix yazan igid oğullarımızın adları Azərbaycan xalqının hər bir vətəndaşının qəlbində yaşayacaq. Əbədiyyətə qovuşan şəhidlərimizin əziz xatirələri hər zaman ehtiramla yad ediləcək.

Qobustan rayon İcra hakimiyyətinin başçısı Adil müəllim şəhid yaxınlarının problemləri və onları narahat edən məsələlərlə də maraqlanıb. Göstərilən diqqət və qayğıya görə ölkə başçısı Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya öz minnətdarlıqlarını ifadə edən şəhid yaxınları, onları narahat edən məsələlərin də qısa müddət ərzində həll olunacağına ümid etdiklərini bildiriblər. Səslənən müraciətlər arasında bir neçə şəhid yaxınının işlə təminatı, müalicəsi və bir sıra digər məsələlər yer alıb. Əksər müraciətlər yerindəcə öz həllini tapıb.

Qeyd edək ki, Qobustan rayon İcra hakimiyyətinin başçısı Adil müəllimin rəhbərliyi tərəfindən gün ərzində bir necə şəhid ailəsi ziyarət edilib, onlara yardım göstərilib.

Qobustan rayon icra hakimiyyəti tərəfindən şəhid ailələrinə ziyarətlər müntəzəm olaraq davam etdirilir və diqqətdə saxlanılır.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.









# Deputat Şahin Seyidzadə seçicilərə 2020-ci ilə üzrə hesabat təqdim etdi

**Milli Məclisin deputatı Şahin Seyidzadə təmsil etdiyi 50 saylı Abşeron-Qobustan seçki dairəsindən olan seçicilərə 2020-ci ildə görülən işlərlə bağlı hesabat təqdim edib. Hesabatda müraciətlər, qanunvericilik, parlamentlərarası və ictimai fəaliyyətlər, həmçinin media sahəsi ilə bağlı fəaliyyətlər kimi bir çox məsələ yer alıb. Ötən il Yaz sessiyasının yekunlarına dair hesabat təqdim edərək, müraciət etmiş sakinlərə birbaşa poçt vasitəsi ilə hesabat yollayan deputat, öz paylaşımında təqdim etdiyi hesabatın da müraciətçilərə poçt vasitəsilə göndəriləcəyini planlaşdırdığını qeyd edib.**



Deputat Şahin Seyidzadə bu barədə öz sosial şəbəkələrdə olan hesablarında paylaşım edib.

Paylaşımı təqdim edirik:

*" Əziz Abşeron və Qobustan sakinləri,*

*Bu gün - 9 fevral 2021-ci il, VI çağırış Milli Məclisə növbədənkənar seçkilərdən 1 il ötür!*

*Geridə qalan 1 il ərzində Sizlərlə daima birlikdə və əlaqədə olduq, pandemiya və müharibə dövründə bir daha sübut etdik ki, biz birlikdə güclü ola bilərik!*

*Geridə qoyduğumuz il sözsüz ki, Qarabağ zəfəri və hələ də davam edən koronavirus pandemiyası ilə mübarizə dövrü kimi yadda qaldı. İstər müharibə dövrü, istərsə də pandemiya dövründə həyata keçirilən bütün fəaliyyətimizi vətəndaşlara xidmət göstərilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, Azərbaycan Respublikasının davamlı və dayanıqlı inkişafına dəstək verilməsinə yönəltdik.*

*Bu 1 il ərzində Parlament üzvü olaraq fəaliyyətdə 4 əsas:*

*- "vətəndaşlarla iş",*

*- "qanunvericilik sahəsində iş",*

*- "parlamentlərarası fəaliyyət",*

*- "ictimai fəaliyyət və kommunikasiya"*

*istiqamətləri müəyyən edərək, sözügedən istiqamətlər çərçivəsində fəaliyyətin sözdən əmələ prinsipləri əsasında təşkili üçün daima səylər göstərdik.*

*2020-ci il ərzində pandemiya dövrünün şərtlərinə uyğun olaraq 289 vətəndaşın iştirakı ilə fərdi formada 28 onlayn və səyyar vətəndaş qəbulu həyata keçirdik. Bu dövr ərzində 701 müraciət daxil olmuş, onlardan Mərkəzi və Yerli İcra Hakimiyyəti orqanlarına ünvanlaraq 63.8%-i icra olunub, 20.9%-i ilə bağlı icraat davam etməkdə, 15.3%-i isə qanunvericiliyin tələblərinə uyğun olmamışdır. Vətəndaşlarla daima qarşılıqlı əlaqəni təmin etmək məqsədi ilə, faydalı məlumat, xəbər, elan, xüsusi hadisə və tarixlər barədə mütəmadi olaraq SMS və "WhatsApp" 14280-dən çox mesaj yollanılmışdır.*

*Əziz seçicilər, geridə qalan 1 il ərzində fərdi, şəhər, kənd, qəsəbə, ümumilikdə Abşeron və Qobustan rayonları ilə bağlı qaldırılan məsələlərə dair bir çox addımlar atıldı. 1 illik fəaliyyəti əhatə edən hesabatı Sizlərə təqdim edərək, 2020-ci il ərzində olan hər bir müraciət sahibinə təqdim olunmuş hesabatın poçt vasitəsi ilə yollanılmasını planlaşdırdığımızı diqqətinizə çatdırırıq.*

*Xatırlatmaq istərdim ki, əlçatanlığı təmin etmək üçün aşağıdakı kommunikasiya vasitələri ilə daim əlaqədə olmağımız mümkündür.*

*Telefon: 0506002550 (Zəng/"WhatsApp"/"Telegram")*

*E-mail: 50@seyidzade.az*

*"Facebook", "Twitter", "Linkedin", "YouTube"/shahinseyidzade*

*Telegram kanalı: https://t.me/shahinseyidzade*

*2020-ci il ərzində vətəndaşlar tərəfindən ünvanlanan müraciətlərin araşdırılaraq, səlahiyyət və qanunvericiliyin imkanları çərçivəsində həlli istiqamətində köməklik göstərmiş bütün dövlət qurumlarına, fəaliyyətimizin işıqlandırılmasında daima dəstək verən media nümayəndələrinə öz təşəkkürümü bildirirəm!*

*Dərin hörmətlə,*
***Şahin Seyidzadə***
***50 saylı Abşeron-Qobustan seçki dairəsi üzrə Azərbaycan Respublikası Milli Məclisinin deputatı"***

Hesabatla tanış olmaq üçün: http://seyidzade.az/hesabat/50sd_Hesabat_2020.pdf

# Azərbaycan-Türkiyə münasibətləri yüksək səviyyədədir



**Prezident İlham Əliyev Xocalı faciəsinin ildönümü günündə yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirərək bir çox məsələlərə aydınlıq gətirmişdir.**

Yeni yaradılmış Rusiya-Türkiyə Monitorinq Mərkəzi bölgədə təhlükəsizliyi təmin etmək məqsədilə artıq fəaliyyətə başlamışdır. Bu Mərkəzin fəaliyyəti noyabrın 10-da Rusiya, Azərbaycan və Ermənistan tərəfindən birgə imzalanmış Bəyanatda öz əksini tapmışdır. Bu sənəddə dəqiq göstərilməsə də bu Rusiya-Türkiyə Monitorinq Mərkəzi olacaq, amma Bəyanat razılaşdırılanda bu müəyyən edilmişdi. Bölgədə sülhü təmin edən və qarantı olan Azərbaycan tərəfindən öz vəsaiti hesabına bu monitorinq mərkəzinin Ağdam rayonunun Mərzili kəndinin yaxınlığında yaradılmasına lazımi şərait yaradıldı.

Monitorinqin yaradılmasında əsas məqsəd post-müharibə dövründə nəzarət etmək, bütün vasitələrdən, o cümlədən pilotsuz uçuş aparatlarından da isifadə edərək monitorinq aparmaqdır ki, bu regionda hər hansı bir münaqişə, bir qarşıdurma olmasın. Bölgədə münaqişə tərəfdarı olan Ermənistan öz havadarlarına güvənərək Türkiyənin regionda olmasını, sülhə töhfə vermısini istəmirdi və hər vasitə ilə mane yaradırdı. Bölgədə sülhün, sabitliyin qorunması üçün önəmli amilə çevrilən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlaması irəliyə doğru vacib addımdır və bu Mərkəz post-müharibə dövrü üçün çox önəmli bir alət olaraq fəaliyyət göstərəcəkdir.

Azərbaycan 30 ilə yaxın bir müddətdə sülh yolu bu münaqişənin həllinə çalışsa da, Ermənistan tərəfinin destruktiv əməlləri və beynəlxalq təşkilatların ikili standartları ölkəmizin bütün səylərini heçə çıxarırdı. 2020-ci ilin sentyabr ayının 27-dən Ermənistanın növbəti təxribatına cavab verən Azərbaycan işğal olunmuş ərazilərini müharibə yolu ilə azad etmək məcburiyyətində qaldı. Başlanan Vətən müharibəsinin ilk günlərindən Türkiyə Azərbaycanın haqq işinə dəstək vermişdir və bu sülhə, sabitliyə hesablanmış bir davranış idi. Türkiyə Cümhuriyyətinin Prezidenti, müdafiə naziri, xarici işlər naziri, digər yüksək vəzifəli rəsmilər birmənalı olaraq Azərbaycana dəstək verdilər və bununla bütün dünyaya mesaj verdilər ki, Azərbaycanın haqq işinə heç bir dövlət mane olmasın, müdaxilə etməsin.

Türkiyənin son dövrlər dünya miqyasında güc mərkəzi kimi irəli çıxması, bölgəmizdə, xüsusilə Azərbyacanda sülhün yaranmasına, siyasi sabitliyin qorunmasına, tərəqqiyə və inkişafa böyük töhfələr vermişdir və bu bölgənin sabitliyi üçün çox önəmlidir. Artıq Türkiyə Müdafiə Nazirliyindən 100-dən çox mütəxəssis Azərbaycana ezam edilmişdir. Türkiyə ilə münasibətdə böyük irəliləyişlər əldə olunub və qarşıda reallaşması gerçəkləşdiriləcək böyük planlar hədəflənmişdir. Ötən ilin 10 noyabr tarixində qəbul olunmuş Bəyanatın bir bəndində Ermənistan ərazisində Azərbaycanı onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirən, həmçinin Azərbaycanı Türkiyə ilə və həm də, Rusiyanı Türkiyə ilə birləşdirən dəhliz açılması nəzərdə tutulmuşdur. Bu isə böyük gələcək perspektivlərdən, iqtisadi tərəqqidən və siyasi sabitlikdən vədlər verir.

QardaşTürkiyə ilə maddi-texniki əməkdaşlığımız daha da gücləndirilmişdir, artıq işğaldan azad olunmuş ərazilərdə mina təmizləmə işini asanlaşdırmaq və başa çatdırmaq üçün müasir texnikalar alınaraq, gətirilmişdir. Qeyd etmək lazımdır ki, gələcək inkişaf üçün və inteqrasiya layihələrinin icrası ilə bağlı region dövlətləri arasında fikir ayrılığı yoxdur. Böyük qələbəmizlə başa çatan müharibədən sonra yeni imkanlar açılmışdır, əməkdaşlıq, qarşılıqlı ticarət, kommunikasiyaların açılması, yeni nəqliyyat dəhlizlərinin yaradılması üçün çox nadir imkanlar yaranmışdır, Ermənistanda tezliklə siyasi sabitlik yaranarsa, Avrasiyanın yeni bir nəqliyyat damarı açıla bilər. Azərbaycan Respublikası Prezidentinin qonşu Türkiyə, Rusiya, İran dövlət başçıları ilə görüşləri və fikir mübadiləsi onu deməyə əsas verir ki, onlar da bu məsələdə bizimlə eyni mövqedədirlər. Ermənistan əvvəlcədən ağır məğlubiyyətə düçar olacaq revanşist hərəkətlərindən əl çəkərsə, mövcud realığa üstünlük verərsə, onda əlbəttə ki, Ermənistan da proseslərin tərkib hissəsi ola bilər.

Ermənistan öz çirkin niyyətlərindən əl çəkməzsə, region dövlətləri, xüsusilə Azərbaycan və Türkiyə ilə əməkdaşlıq etməzsə, olduqca çətin duruma düşən vəziyyəti daha da çətinləşəcək, çünki mövcud vəziyyətdən çıxmaq üçün, bərpası üçün heç bir resursu qalmamışdır. Ona görə də Ermənistan burada hər hansı bir təxribat törətməyə cəhd etməməlidir. Onların düşdüyü siyasi, hərbi və iqtisadi vəziyyət bunu şərtləndirir, diqtə edir.

Regionun digər dövlətləri Türkiyə, Rusiya, İran və Azərbaycan arasında yaranan yeni münasibətlər, yeni iqtisadi əməkdaşlıq haqqında aydın təsəvvürlər yaranır. Azərbaycan bu yeni münasibətlərdə, əməkdaşlıqda aparıcı mövqedə olması təkzib olunmazdır, çünki hər zaman uğurlu əməkdaşlığın nümunəsi olmuşdur.

28 illik həsrətdən sonra işğaldan azad olunmuş ərazilərdə bərpa işlərinə başlanılmışdır və bu proseslərdə Türk şirkətlərinin fəal iştirakına daha çox üstünlük verilir. Artıq ilk kontraktlar Türkiyə şirkətləri ilə imzalanmışdır. İşğaldan azad olunmuş ərazilərin bərpası ilə bağlı görüləcək işlərin həcmi çox böyükdür. Bununla əlaqədar Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti ilə də dəfələrlə görüşmüş və fikir mübadiləsi aparmışdır.

Razılaşmalara görə artıq böyük strateji əhəmiyyət daşıyan Füzuli-Şuşa avtomobil yolunun inşası ilə bağlı türk şirkətləri artıq fəaliyyətdədirlər. Göygöl bölgəsindən Kəlbəcərə çəkilən yol çox mürəkkəb, çətin bir ərazidən keçir, orada tunellər qazılmalıdır, işin çətinliyi nəzərə alınaraq bu yol da türk şirkətlərinə həvalə olunmuşdur.

Bi sıra layihələr, inşaat, yenidənqurma, infrastruktur, tarixi abidələrimizin bərpası birgə həyata keçiriləк və bu layihələr Türkiyə şirkətlərinin buradakı fəaliyyəti üçün yeni imkanlar yaradacaqdır. Türkiyə şirkətlərinin bu sahədə zəngin iş təcrübəsi var, onlar indiyədək Azərbaycanda təqribən 10 milyard dollardan çox dəyəri olan layihələrdə, müxtəlif inşaat layihələrində iştirak ediblər.

Türkiyə və Azərbaycan iki qardaş ölkə olmaqla dünya miqyasında bir-birinə ən yaxın ölkələrdir, bütün münaqişələrdə və beynəlxalq tıədbirlərdə bir-birinə dəstək olmuşlar. II Qarabağ, Vətən müharibəsi dövründə bütün dünya Türkiyə hərbi müdafiə sənaye məhsullarının keyfiyyətini gördü. Əldə olunmuş Türkiyə istehsalı olan hərbi arsenaldan Azərbaycan məharətlə istifadə etdi və müharibəni qələbə ilə başa vurdu. Bu əməkdaşlıq müharibədən sonra daha da genişlənir. Müharibə başa çatsa da, Azərbaycan yeni silahlar almalı, hərbi potensialını gücləndirməlidir. Artıq yeni kontraktlar imzalanmış və Türkiyədə istehsal olunmuş ən müasir silahların alınması üçün razılaşmalar əldə olunmuşdur. Azərbaycan və Türk Silahlı Qüvvələri arasında əməkdaşlıq və dostluq telləri uzun tarixə malikdir və bütün dövrlərdə bir yerdə olmuşlar.

Türkiyə - Azərbaycan birgə hərbi təlimləri müntəzəm olaraq keçirilir, yalnız 2019-cu ildə 10 dəfədən çox hərbi təlim keçirilmişdir. Bu il Qars şəhərində növbəti hərbi təlim keçirilmiş və bu təlimlər davam etdiriləcəkdir.

Müasir Türkiyə Ordusu dünyada güclülər sırasındadır, NATO blokunda güc baxımından ikinci ordudur. Azərbaycanda Türk Ordusunun kiçik modeli yaranmaqdadır, başa çatan Vətən müharibəsinin gedişatı bunu bir daha təsdiq etdi.

Ermənistan Türkiyəni həmişə düşmən ölkə saymış və bütün dünyada Türkiyə əleyhinə çirkin kompaniya aparmışdır. Türkiyəyə qarşı düşmənçilik, türkəfobiya rəsmi ideologiya səviyyəsinə qaldırılmışdır. Ermənilər tək Türkiyəyə deyil, Azərbaycana da düşmən münasibət bəsləmişlər. Təəssüf ki, bu gün də Ermənistanda anti-Türkiyə və anti-Azərbaycan təbliğatı aparılır və əslində bu Ermənistanı daha da məhvə doğru sürükləyir. Təəssüf ki, bəzi dövlətlər erməni dövlətinin təbliğatının təsiri altında qondarma "soyqırım aktı"nı qəbul etdilər. Ermənistanın Türkiyəyə qarşı ərazi iddiaları var və vaxtaşırı onlar bu çirkin niyyətlərini gündəmə gətirirlər. Ermənistan Türkiyəyə qarşı bədxah niyyətlərindən əl çəkməlidirlər, bu onlar üçün sui-qəsddir, sondur. Türkiyə bütün dövrlərdə Azərbaycana arxa olmuş və bu siyasət dəyişməz olacaq qalacaqdır. I Qarabağ müharibəsində erməni qəsbkarları tərəfindən Kəlbəcərin işğalına cavab olaraq, Türkiyə Ermənistanla sərhədlərini bağlamışdır, əlbəttə bu bir qardaşlıq addımı kimi, həmrəylik aktı kimi qiymətləndirilməlidir.

Yeni vəziyyəti nəzərə alaraq Türkiyə - Ermənistan əlaqələrinin normallaşması da müsbət qarşılanmalıdır. Türkiyə özü müəyyən edəcək ki, Ermənistan ilə sərhədlər nə zaman açıla bilər, nə zaman əlaqələr normallaşa bilər. Bu münasibət Ermənistan tərəfindən asılıdır, düşmənçilik siyasətindən əl çəksələr, bu bütün region dövlətlərinin xeyrinə olar. 10 noyabr Bəyanətinə uyğun olaraq Zəngəzur koridoru açılarsa, Türkiyə - Ermənistan sərhədlərinin bağlı qalmasına ehtiyac qalmaz. Bu halda Azərbaycanda hər hansı bir mənfi fikir olmayacaq və bu Azərbaycanın da xeyrinə olacaqdır.

Vətən müharibəsində və postmüharibə dövründə Türkiyə dövlətinə göstərdiyi bütün dəstəyə görə bir daha təşəkkürümüzü bildiririk.

Yaşasın Türkiyə - Azərbaycan qardaşlığı!

***Qobustan rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi***
***Elman Salmanov***

# Şəhid Əhmədov Cavanşir Xeyrulla oğlu

***Qobustan rayonunun Dərəkənd kəndindən olan Şəhid Əhmədov Cavanşir Xeyrulla oğlu 12 noyabr 1999-cu ildə Qardağ rayonu Ələt qəsəbəsində anadan olub. 2005-ci ildə həmin qəsəbədə yerləşən orta məktəbin 1-ci sinifinə daxil olur.***

2016-cı ildə orta məktəbi bitrərək ali məktəbə daxil olur. Hərbiyə olan marağı onu atıcılıq kurslarına da yazılmağa sövq edir.Cavanşir orada snayperçi bacarıqlarına yiyələnir, və kursda eyni zamanda özü də təlim keçməyə başlayır. 2020-ci ilin iyul



ayında isə ali məktəbi bitrərək, hərbi xidmətə yollanır. Qəlbində olan dərin vətən-Qarabağ sevgisi onu heç zaman tərk etmir və Cavanşir Xüsusi Təyinatlı Qüvvələrə seçilərək arzusuna qovuşur.

Müharibə başlayan ilk gündən O, yoldaşları ilə bir yerdə ön cəbhədə vuruşur. Cavanşir ilk öncə Murov dağ zirvəsinin, Cəbrayıl, Hadrut qəsəbəsinin düşməndən azad olunmasında fəal iştirak edib.Zəngilan döyüşlərində də iştirak edən Cavanşir 15 oktaybr tarixində düşmən güllələsinə tuş gələrək şəhid olur.

Ölümündən sonra "Vətən Uğrunda" medalı ilə təltif olunub.

Allah rəhmət eləsin.



# Xocalı qətliamı əsrin faciəsidir

***Qobustan rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Xocalı faciəsinin 29-cu ildönümü münasibətilə 22-25 fevral 2021-ci il tarixlərində "Xocalı qətliamı əsrin faciəsidir" mövzusunda məktəbli yeniyetmə və gənclər arasında inşa yazı müsabiqəsi keçirilmişdir.***

Bu müsabiqədə 25 nəfər, Q.Ələkbərov adına Çuxanlı kənd tam orta məktəbinin, Qobustan şəhər və Sündü kənd Mədəniyyət evinin "Bədii qiraət" dərnəklərinin üzvləri fəal iştirak etmişlər.

25 fevral 2021-ci il tarixində Qobustan rayon Gənclər və İdman İdarəsinin təşəbbüsü və təşkilatçılığı ilə Xocalı faciəsinin 29-cu ildönümü münasibətilə "İrəli" İB tərəfindən lentə alınmış "Böyüməyən uşaqlar" film nümayiş olunmuşdur. Kovid-19 pandemiyasının davam etməsi nəzərə alınaraq filmin nümayişində 10 nəfər fəal gəncin iştirakı təmin olunmuşdur.

# Qobustan RİH-də yeni təyinat



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"yə dəyişiklik edilməsi haqqında müvafiq Fərmanına əsasən Qobustan Rayon İcra Hakimiyyəti başçısı aparatında yeni yaradılmış Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri vəzifəsinə Vətən müharibəsi iştirakçısı, Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmiş, Azərbaycan Respublikası Prezidentinin 25.12.2020-ci il tarixli Sərəncamı ilə "Füzulinin azad olunmasına görə"və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuş Dəmirov Rövşən İlham oğlu təyin edilmişdir.

# "Yeni Nəsil 2.0" layihəsi çərçivəsində region görüşlərinə start verilmişdir!



***Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Coca-Cola və USAID/Azerbaijanın dəstəyi, "Youth Inc." Sahibkarlıq Proqramının təşkilatçılığı ilə "Yeni Nəsil 2.0" layihəsi çərçivəsində region görüşlərinə start verilmişdir!***

İlk görüş 22 fevral 2021-ci il tarixində Milli Məclisin deputatı Şahin Seyidzadə, Qobustan rayon Gənclər və İdman idarəsinin rəisi Qadir Əkbərov, Qobustan rayon İcra hakimiyyəti nümayəndələri, Qobustan Gənclər Evi SXM-nin direktoru Anar İrzaquluyev və Qobustan rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin rəsmi nümayəndələrinin iştirakı ilə Qobustanda baş tutub.



Görüşün məqsədi gələcək layihələr çərçivəsində sıx əməkdaşlığın yaradılması ilə yanaşı, Qobustan gənclərinin bu layihələrə cəlb edilməsi olub.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Şahin Seyidzadə bildirdi ki: "Gənc sahibkarlara dəstək gənclər siyasətinin bir hissəsidir və bu məqsədlə, gənclərin inkişafına birgə dəstək göstərəcəyimizə inanırıq."



# Şəhid Mecdunov Xalidin doğum günü

***Bu gün torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmiş igidlərdən birinin, Mecdunov Xalid Zahir oğlunun doğum günüdür. Xalid Mecdunov Vətən müharibəsində MAHHXHQ Çavuş kimi şərəfli döyüş yolu keçmişdir. Müharibədə göstərdiyi rəşadətə görə o, "Vətən uğrunda",və "Cəbrayılın azad olunmasına görə", medalları ilə təltif olunmuşdur.***

Şəhidin doğum günü ilə əlaqədar oxuduğu Mahir.Kərimov adına Poladlı kənd tam orta məktəbinin bir qrup müəllim və şagirdləri onun abidəsi önünə getmiş və xatirəsini ehtiramla yad etmişlər.

Qobustan rayon İcra Hakimiyyəti Başçısı Aparatının üzvləri Xalid Mecdunovun doğum günündə şəhidin məzarını ziyarət etmiş, məzarı üzərinə gül dəstləri qoymuşdur.

Qobustan RİHBA-nın üzvləri ziyarətdə iştirak edən şəhid valideyinləri ilə söhbət etmiş, şəhidlərimizin əbədi ehtirama layiq olduğunu bildirmiş, Vətənimiz üçün gərəkli övlad böyütdükləri üçün onlara təşəkkür etmiş və şəhid ailələri, Vətən müharibəsi iştirakçıları ilə bağlı dövlətin mühüm tədbirlər gördüyünü diqqətə çatdırmışdır.

Şəhid atası Zahir Mecdunov dövlət səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razı qaldığını bildirmiş və ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını ifadə etmişdir.

# TƏBRİK EDİRİK!



Mədəniyyət Nazirliyinin ümumrespublika üzrə elan etdiyi vətənpərvərlik mövzusunda ədəbiyyat müsabiqəsində Yusif Nazim Ərəbsoyun "Zəfər simvolu" şeiri I yerə layiq görülüb. Nazirlik tərəfindən qalibə pul mükafatı və diplom təqdim ediləcək. Qeyd edək ki, Yusif Nazim Ərəbsoy Azərbaycan Yazıçılar Birliyi və Dünya Gənc Türk Yazarlar Birliyinin üzvüdür. "Şou dünya" və "Cənab şair" adlı kitabların müəllifidir. Şeir, hekayə, aforizm, məqalə yazarıdır. Müsabiqədə qalib olan şeiri sizə təqdim edirik:

## ZƏFƏR SİMVOLU

Sən ey mənim yurdumda güldən gözəl bayrağım,
Sən ey müqəddəs əldə əldən gözəl bayrağım!
Ey mənim Dövlətimdən qoca olan bayrağım,
Sancıldığı zirvədən uca olan bayrağım!
Dalğalan zirvələrdə, dalğalara örnək ol,
Namuslu gözəllərin qon başına örpək ol!
Başım üstə papaqsan,
Torpaqsan gözüm üstə.
Sən şeirimin içində,
Olmusan sözüm üstə.
Mən sənə baş əymişəm,
Qarşında dizim üstə.
Bayraqların içində, ey mənim vəsf etdiyim,
Şeirlərin bayrağı, qəzəllərin bayrağı!
Ey uğrunda şərəflə şəhadətə getdiyim,
Bayraqların gözəli, gözəllərin bayrağı!
Gör sənin sacıldığın neçə kənd var, şəhər var,
Zəfər varsa, sən varsan, sən varsansa, zəfər var!
Ürəkdə can da sənsən, Azərbaycan da sənsən!
Balaca otağımda böyük cahan da sənsən!

# "Şuşa fatehi"




## Vətən savaşının 4 medallı qəhrəmanı Samir İsmayılov

**Bu Vətən çox hünərli oğullar yetirib, çox qəhrəmanlara yurd olub. Bu Vətənin zərrəsi uğrunda can qoymağa minlərlə həvəslisi, bağrında daşa dönməyə, al qanıyla torpağa "Vətən" yazmağa, torpağı Vətən etməyə milyonlarla könüllüsü var...**

Biz nə uzaq-uzaq əsrlərdən aşina olduğumuz, qürurlandığımız Cavanşir, Babək, Koroğlu və daha neçə-neçə adlarını sadalamadığımız xalq qəhrəmanlarımızdan danışmırıq. Cəmi bir neçə ay əvvəl, 44 gün ərzində gözlərimiz önündə hünər zirvəsinə sərv kimi ucalan, hərəsi bir qəhrəmanlıq salnaməsi yazan parlaq Zəfərimizin cəsurlarından, qəhrəmanlıqlarına şahid olduğumuz Azərbaycan oğullarından danışırıq...

O oğullar ki, Vətənin harayına min yerdən hay verdilər, onun azadlığı uğrunda irəli atıldılar...

### Mərdliyin, igidliyin, cəsarətin zirvəsinə yüksələnlər qəhrəmandır

Hər bir ölkənin, xalqın tarixini şəxsiyyətlər yazır. Tarixi zəngin olan ölkə məlumdur ki, keşməkeşli yollardan keçir. Elə tarixi zənginləşdirən, qızıl hərflərlə yaddaşlara həkk edən də şəxsiyyətlərdir. O şəxsiyyətlər ki, Vətən onlar üçün anadır. O şəxsiyyətlər, qəhrəmanlar ki, torpaq, bayraq onlar üçün canlarından əzizdir. Mərdliyin, igidliyin, cəsarətin zirvəsinə yüksələnlər qəhrəman adlanır. Bu yurdun neçə - neçə namuslu, igid, qoçaq oğulları, qızları var. Bu yurd neçə-neçə sınaqdan üzüağ çıxıb. Çünki vətən sevgisi, millət sevgisi bu yurdun hər bir vətəndaşının damarlarında dövr edir. Hər bir vətəndaş namusu qədər çox sevir bu vətəni, məğrur Azərbaycanı.

Azərbaycan anadır, ananı sevmək gərək, Azərbaycan arzudur, niyyətdir arzuya çatmaq gərək. Bayaq qeyd etdiyimiz kimi, Vətənin azadlığı, vətənin xoş günü ən ümdə arzudur, bu vətəndaşlar üçün, bu qəhrəmanlar üçün. Qəhrəman deyirəm, çünki hər bir vətəndaşda vətən sevgisi, torpaq sevgisi zirvəyə yüksəlib. Onlar üçün qəhrəmanlıq Azərbaycançılıqdır. Qəhrəmanlığın əsasını qoyan amil vətənpərvərlikdir. Vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir.

Bəlkə də buna görədir ki, tarix boyu xalqımız öz Vətənini göz bəbəyi kimi qorumağa hər an hazır olan igid oğullar yetişdirmişdir. Bu igidlərin şücaəti, sevgisi sayəsində biz müstəqilik, həmdə artıq Bütövük, tamıq. Bəli, bütöv dedim çünki Azərbaycan artıq Qarabağ adlı yarasına məlhəm tapıb. Həm də bu məlhəmi xalqın qəhrəmanları, igid oğulları çəkib Qarabağ adlı yaraya.



### Bu gün Azərbaycan tarixinin ən qürürverici anlarını yaşayır

Qarabağ, vətənimin nazlı, namuslu gəlini. Sənin uğrunda neçə Mübarizlər, neçə Fəridlər, neçə Şikarlar, neçə Poladlar canını fəda etdi. Şəhid oldu. Bəli, mənim vətənim bu Babək şücaətli, Koroğlu nərəli oğulların Anasıdır. Xeyr, onlar ölməyib, şəhidlər ölmür. Onların xatirəsi əbədidir bu xalqın qəlbində. Bu gün Azərbaycan tarixinin ən qürürverici anlarını yaşayır. Çünki o qələbə çalıb. Uzun illərdən sonra torpaqlarını azad edib. Haqqıdır sevinsin, sevincindən göz yaşı töksün. Hamımıza məlumdur həmin möhtəşəm qələbə. Və bu qələbənin necə qazanıldığı. 27 sentyabr 2020-ci il, Azərbaycan xalqının bir yumruq olduğu , dəmir yumruq olduğu gün. Biz həmrəy olduq. O da məlumdur ki, müharibə itkisiz ötüşmür. Yenə dərin yaralar açdı bu amansız müharibə qəlbimizdə. Amma olsun , buna dəydi. Biz qələbə çaldıq. Biz zəfər çaldıq. Anaların duası ilə, həkimlərin səyi ilə, xalqın imanı və ən əsası əsgər və zabitlərimizin şücaəti ilə. Bu gün ana yurdumun şanlı Azərbaycan ordusunun zəfər hayqırtıları gəlir, zirvəsi göylərlə yarışan zirvələrimizdə, Murovda ay- ulduzlu üçrəngli bayraqlarımız dalğalanır.

*Ya bu gün, ya sabah, ya mütləq bir gün!*
*Ay -ulduz bayrağı alıbda yerdən*
*Sancarıq düşmənin köksünə hər gün*
*Ki, bilsin türklərdir əcəli yerdə .*
*Ya bu gün, ya sabah, ya mütləq bir gün!*
*Çökəcək bu dünya türklər önündə .*
*Odur ki, ey yağı gəl indi bu gün,*
*Təslim ol yoxsa ki, gec olar birdə.*

### Yağı düşmən Azərbaycan əsgəri önündə diz çökdü

Bəli, artıq o gün gəldi çatdı. Yağı düşmən Azərbaycan əsgəri önündə diz çökdü.

Düşmən hücumlarına layiqli cavab verən əsgər - qəhrəmanlarımız bu torpaqların sahibsiz olmadığını sübut etdi. Elə müharibənin ilk günlərindən qələbə sədaları gəlirdi dağların o tayından. Ard-arda qazanılan qələbələr, Ali baş Komandanımızın zəfər çıxışları hər birimizi sevinc göz yaşlarına qərq edirdi. O hisslər heç zaman bizi tərk etməyəcək. Biz arxa cəbhədə qürurlanarkən, sevinərkən, igid oğullarımız bundan ilham alıb daha şövqlə, daha inamla düşmən üzərinə şığıyırdı. Və Şuşa zəfəri...

Azərbaycan tarixinin ən qızıl günü 8 noyabr 2020-ci il. Xarı bülbülün vətənini, Qarabağın zümrüd qaşını 30 illik əsarətdən xilas etdi bu torpağın qəhrəmanları. Qayalara əzmlə dırmaşaraq, düşmənlə təkbətək döyüşərək azad etdilər baş tacımızı. Çox qəhrəmanlar tanındı, üzə çıxdı o günlərdə. Ölümə gözübağlı atıldılar, canlarından keçdilər, şəhidlik zirvəsinə ucaldılar. Dahi şairimiz Bəxtiyar Vahabzadə deyirdi: "Azadlıq uğrunda qurban gedən şəhidlərimiz bizə azadlığın zərurət olduğunu və lazım gələrsə, bu yolda bu millətin ölümə belə gedə biləcəyini sübut etdilər".

### İlk zəfər carçılarımız

Belə hünərli oğullardan, Şuşaya ilk ayaq basan cəsurlarımızdan biri də "Şuşa fatehi" ləqəbli İsmayılov Samir Əlimusa oğludur.

O da 44 günlük Vətən müharibəsinin mərd savaşçılarındandır. Samir İsmayılov "Canım da, son damla qanım da Vətənimə qurbandır" deyərək, Qarabağımızın düşmən tapdağından azad edilməsi üçün çarpışan minlərlə qəhrəman Azərbaycan oğlundan biridir.

*Tarixdən silinməz böyük adın var,*
*Min cür gözəlliyin , xoş muradın var*
*Cəsur igidlərin, qol- qanadın var,*
*Qəhrəmanlar yurdu şən Azərbaycan*

Bu cür oğullar xalqın qol-qanadıdır. Samir İsmayılov da ilk zəfər carçılarımızdandır. Şuşamızı düşmən tapdağından xilas edənlərdəndir həm də. Samir 1981 ci ildə Qobustan rayonunun Mərəzə qəsəbəsində anadan olmuşdur. Qobustan rayon 1 saylı tam orta məktəbin məzunudur. Uşaqlıqdan idmana olan həvəsi onu bu sahədə daha təcrübəli edib, 2017 ci ildə "Pencak Silat" Avropa çempionluğunda 1 ci yer ilə mükafatlandırılıb. 2018 ci ildə isə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən "İdman ustası" adına layiq görülmüşdür. O, Dövlət Sərhəd xitmətində də öz vəzifəsini layiqincə yerinə yetirir. 2011 ci ildə "İgidliyə görə", 2012-ci ildə "Vətən uğrunda", 2013-cü ildə "AR SQ 95 illiyi" ( 1918 - 2013 ) yubley medalları ilə təltif olunub. 2014-cü ildə "Hərbi xidmətdə fərqlənməyə görə" 3 cü dərəcə, 2014-cü ildə "AR Sər2014" yubley medalı, 2015-ci ildə "Hərbi xidmətdə fərqlənməyə görə" 2-ci dərəcə, 2017-ci ildə "Hərbi xidmətlərə görə" medalı, 2018-ci ildə "AO 100 illiyi (1918- 2018 )" yubley medalı, 2019-cu ildə "Qüsursuz xidmətə görə " 3 cü dərəcəli, 2019-cu ildə "Vətən uğrunda" medalı, 2019 "Ar Sər. Mü 100 illiyi( 1919- 2019 ) yubley medalı, 2020" " Şücaətə görə" medalına layiq görülüb.

Samir İsmayılov hələ 2016-cı il aprel döyüşlərində Lələtəpə yüksəkliyinin alınması uğrunda da böyük qəhrəmanlıq göstərmişdir. Vətən uğrunda xidmət onun üçün ailəsindən, sevdiklərindən ən əsası canından belə daha öndədir.

Elə buna görədir ki, II Qarabağ müharibəsində də Vətənin harayına hay verən oğullara qoşulub, düşmənin murdar ayağını torpaqlarımızdan qazıyıb atdılar.

Samir İsmayılovun döyüşlərdə göstərdiyi layiqli xidmət dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. O, Vətən savaşında göstərdiyi xidmətlərə görə "Qarabag uğrunda", " Şuşa uğrunda", "Xocavənd uğrunda", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

### Əmim, eləcədə bütün Vətən qəhrəmanları ilə fəxr edirəm

Haqqında qürurla bəhs etdiyim bu qəhrəman, həm də mənim əmimdir. Samir İsmayılov bir əmi kimi də nəcib xüsusiyyətlərə malikdir. Müharibə bitdikdən sonra Samir əmimdən bu qələbəni necə qazandıqlarını soruşdum. O isə cavabında sadəcə bu sözləri söylədi: "Bizim yalnız bir məqsədimiz var idi, o torpaqları düşmən tapdağından azad etmək, üçrəngli bayrağımızı Qarabağın mavi səmalarda dalğalanan görmək. Beynimizdə bir nida var idi - biz bu 30 illik həsrətə son qoyacağıq. Buna görə də, Ali baş Komandanın "İrəli" əmrini səbirsizliklə gözləyirdik və həmin məqam yetişmişdi".

Bu uğurda daim irəli getmişdilər, nə dağlar, dərələr, nə qarlı, şaxtalı hava, nə də düşmən istehkamları, bombaları onları bu yoldan döndərə bilməmişdi. Onlar üçün Qarabağı azad etmədən bu yolda öldü var idi, döndü yox.

Düşmənlə çarpışmış, neçə dəfə ölümlə burun-buruna gəlmişdilər, amma qorxmamışdılar. Çünki bu müqəddəs yola şəhadət şərbəti içib çıxmışdılar, özlərini Vətənə qurban demişdilər.

Əmim, eləcədə bütün Vətən qəhrəmanları ilə fəxr edirəm. Bu Vətən uğrunda şəhid olan qəhrəman oğullarıızın ruhu qarşısında baş əyirəm.

Bu gün Azərbaycan xalqı qürurludur, məğrurdur. Çünki, Qarabağı azaddır, şəhidlərinin qisası alınıb, qanları yerdə qalmayıb.

Bəli, 44 günlük müqəddəs Vətən savaşında qəhrəman oğullarımız düşmənə meydan oxudular, qarşılarında diz çökdürdülər, canlarıyla sipər oldular vətənə. Azərbaycanın yeni qürurverici tarixini Qarabağda qanlarıyla yazdılar. Yazdılar ki, min illərin o tayında belə, gələcək nəsillər bu günlərin şanlı zəfər salnaməsini qürurla vərəqləsinlər.

**Günay İSMAYILOVA,**
**AXDU-nun II kurs tələbəsi**

# Cəmcəmli şəhidlərinin əziz xatirəsi əbədiləşdirildi



Şəhid Rauf Babaşov adına Cəmcəmli kənd tam orta məktəbinin müəllimi Şakir Xəlilzadə, eyni zamanda kəndin fəal gəncləri Əsəd Hüseynquluyev və Səyyad Beşirov tərəfindən Birinci Qarabağ Müharibəsində canlarını fəda edərək şəhidlik zirvəsinə yüksəlmiş kənd oğulları Rauf Babaşov, Fuad Hüseynquluyev, Ramil Hidayətov, Anar Cavadov, Vasif Əmirov və Əmrah Tapdıqovun şəkilləri olan löhvə hazırlanmışdır. Bu gün kəndin bir neçə gənci və şəhid Fuad Hüseynquluyevin qardaşı Elman Hüseynquliyevin də köməyi ilə şəhidlərin xatirə lövhəsi qurulmuşdur.

Həqiqətən löhvənin hazirlanmasında adı çəkilən gənclər çox əziyyət çəkmişdir.



Allah şəhidlərimizə rəhmət etsin.

**Mirzə li Mİrzə**

# Qələbədə onların da payı var...

### Niftaliyev Ülvi Eminağa oğlu



Niftaliyev Ülvi Eminağa oğlu 19 yanvar 1992-ci ildə Qobustan şəhərində anadan olmuşdur. 1999-cu ildə A.O.Çernyayevski adına tam orta məktəbin birinci sinfinə qəbul olmuş və 2010-cu ildə həmin məktəbin tam kursunu bitirmişdir. 2010-cu ilin oktyabrında həqiqi hərbi xidmətə çağırılmış və 2012-ci ilin aprelində ordudan ehtiyata buraxılmışdır.

Bir gənc olaraq torpaqlarımızın düşməndən azad olunması, eləcə də bütün şəhidlərimizin qisasını almaq onun müqəddəs arzusu idi.

Ona görə də Niftaliyev Ülvi rayonumuzdan Vətən Müharibəsinə könüllü olaraq ilk gedənlərdən biri olub.

Ilk döyüş yolu Füzuli rayonunun azad olunması istiqamətində olub və onun iştirak etdiyi tabor bir neçə dəfə düşməni məğlubiyyətə uğradıb.Lakin növbəti döyüşdə minamyotun partlaması nəticəsində kəllə-beyin travması alıb. Əvvəlcə Fizuli rayonunun mərkəzi xəstəxanasında müalicə olunub. Sonra İsmayıllı rayon mərkəzi xəstəxanasına göndərilib. Müalicəsi tam bitməmiş öz iradına əsasən yenidən döyüşə qatılıb. Şuşanın Daşaltı kəndində gedən döyüşlərdə fəal iştirak edib. Uçurum qayalardan yıxılmasına və 3 saat ağac budağından sallaqlı vəziyyətdə qalmasına baxmayaraq, döyüşdə sona qədər vuruşub.

Qələbə xəbəri hamı kimi Ü. Niftaliyevi də çox sevindirib. Lakin bu gənc çox saylı zədələrlə bağlı Füzuli rayonundakı hospitala göndərilib. Bir müddət sonra Bakı şəhərindəki hospitalda müalicəsini davam etdirib.

Ali Baş Komandan İ. Əliyevin sərəncamına əsasən Ü. Niftaliyev "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Vətən Müharibəsi iştirakçısı " medalları ilə təltif olunub.

### Rəcəbli Ramil Bəyalı oğlu



Rəcəbli Ramil Bəyalı oğlu 2 iyun 1995-ci ildə rayonumuzun Ərəbqədim kəndində anadan olmuşdur. Mübariz Sahibov adına Ərəbqədim tam orta məktəbini bitirib. 2013-cü ilin iyul ayında həqiqi hərbi xidmətə yollanmış və 2015-ci ilin yanvar ayında ordudan tərxis olunaraq ehtiyata buraxılmışdır. Sonra bir müddət yanacaqdoldurma məntəqəsində operator kimi çalışmışdır.

2020-ci ilin oktyabr ayında Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinin Qobustan rayon bölməsinə gələrək, könüllü olaraq düşmənə qarşı döyüşə getmək istədiyini bildirmişdi. Bir neçə gün Mingəçevir şəhərində qaldıqdan sonra Tərtər istiqamətində gedən döyüşlərə qatılıb. Suqovuşan uğrunda gedən döyüşdə düşmənə ağır zərbə vuraraq, həmin yerin azad olunmasına nail olublar. Lakin bu döyüşdə R. Rəcəbli ağır yaralanmışdır. O, bir müddət Gəncədə müalicə olunmuş, sonra isə əməliyyat olunmaq üçün Bakı şəhərindəki hospitala göndərilmişdir. Hal-hazırda hər iki qıçında "İlizarov" aparatı gəzdirən Ramil müalicəsini davam etdirir.

Mehman Rəcəbov Ramillə yaxın qohum olsalar da həm də müəllimi olub. Söhbətində bildirdi ki, Ramil özünəgüvənən və qürurlu bir gəncdir. Vətənə olan bağlılığını məktəbdə oxuyanda da sezirdim. Onu könüllü olaraq yola saldıq. Ramilin babası da Böyük Vətən Müharibəsinin iştirakçısı olub. Ramil kimi oğullarımız da öz sələflərinin yolunu davam etdirərək qələbəyə nail oldular.

### Üzeyirov Famil Saleh oğlu



Famil Üzeyirov 26 may 1990- cı ildə Qobustan rayonunun Nabur kəndində anadan olub. İlk təhsilini "Stansiya Sumqayıt" adlanan ərazidəki 43 saylı tam orta məktəbdə alıb. Bir müddət daş karxanasında çalışıb. 2011-2013-cü illərdə həqiqi hərbi xidmətdə olub. Ordudan tərxis olunanadan sonra kərpic zavodda işə başlayıb. Sonuncu iş yeri Heydər Əliyev adına Neft Emalı Zavodu olub.

Iki uşaq atası olan Famil ilk günlərdə döyüşə yollanıb. Döyüş yolu Tərtər istiqamətindən keçib. Suqovuşanın azad olunmasında uğrunda gedən döyüşlərdə ağır yaralanıb. Öncə Naftalan və Gəncə şəhərlərindəki tibbi mərkəzlərdə müalicə olunub. Sonra müalicəsini Bakı şəhərində yerləşən Medi Klubda davam etdirib.

F. Üzeyirov döyüşdə olarkən üçüncü övladı - Yusif dünyaya gəlib. Bu da döyüşçünün böyük sevincinə səbəb olub.

***Günay Bayramlı***
***Rauf Babaşov adına***
***Cəmcəmli kənd***
***tam orta məktəbinin müəllimi***

## Cəyirli kənd sakinləri kəndə yeni çəkilmiş asfalt yolun kənarlarına yeni ağaclar əkir, əkilmiş ağaclara qulluq edirlər

***Qobustan rayon Cəyirli kənd sakinləri kəndə yeni çəkilmiş asfalt yolun kənarlarına yeni ağaclar əkir, əkilmiş ağaclara qulluq edirlər.***

Belə ki, əkilmiş ağaclar kənd yoluna xüsusi gözəllik verməklə yanaşı asfalt örtüyünün də qorunmasına köməklik edir. Bu işlərin aparılmasında Cəyirli kənd İƏD üzrə nümayəndəliyin əməkdaşları və kənd sakinlərin yaxından iştirak edirlər.





## İgidimiz Qayıblı Hamlet Bəxtiyar oğlu

***İgidimiz Qayıblı Hamlet Bəxtiyar oğlu. 1998-ci ildə Qobustan rayon Nərmankənd kəndində anadan olub.***

"Vətən Müharibəsi"başladığı gündən könüllü olaraq döyüşlərə qatılıb.Cəbrayıl istiqamətində gedən döyüşlərdə yaralansa da 5 gün sonra yenidən cəbhəyə yollanıb.

İgidimiz "Birinci dərəcəli"döyüşçü kimi qiymətləndirilib.Hal-hazırda ön cəbhədə Vətənimizin keşiyindədir.

Allah qorusun!

İgid Əsgər,səninlə fəxr edirik!

# Xocalı soyqırımından 29 il keçir

***1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri Rusiyanın 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhərini işğal edərək, burada yaşayan dinc əhaliyə - azərbaycanlılara qarşı soyqırımı törədib.***

Soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Girov götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

Lakin xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu qanlı faciəyə ilk dəfə olaraq hüquqi-siyasi qiymət verilmişdir. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi qəbul etmişdir.

Məhz o dövrdən başlayaraq dünya azərbaycanlıları və Azərbaycan hökuməti erməni millətçilərinin xalqımıza qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Bu, Xocalı şəhidləri qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur.

Xocalı soyqırımının ildönümü hər il ölkəmizdə və dünyanın bir çox ölkələrində hüznlə qeyd olunur. Azərbaycan səfirlikləri və diaspor təşkilatları fəaliyyət göstərdikləri ölkələrdə anım mərasimləri təşkil edir, konfranslar keçirirlər.

2008-cu ildən başlayaraq isə İslam Konfransı Təşkilatı Gənclər Forumunun (İKGF) Mədəniyyətlərarası Dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya Ədalət" kampaniyası keçirilir. Kampaniyanın məqsədi beynəlxalq ictimaiyyətin Xocalı faciəsi ilə bağlı məlumatlandırılması, faciəyə beynəlxalq aləmdə mənəvi-siyasi qiymət verilməsi və beynəlxalq səviyyədə anılmasını təmin etməkdir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***Qobustan rayon Qeydiyyat Şöbəsinin***
***rəisi kiçik ədliyyə müşaviri:***
***Seyidəhmədlli Urfilə Şamil qızı***

# 2021-ci ilin mart ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr, hesabatlar, ödənilməli vergilər və sığorta haqları barədə yaddaş

**29 mart 2021-ci il tarixədək**

**Gəlir vergisi (Xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübüdür. Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir.

**Gəlir vergisi (İdman mərc oyunları, lotereyalar, habelə digər yarışlar və müsabiqələr üzrə):** İdman mərc oyunlarından, lotereyalardan, habelə digər yarışlar və müsabiqələrdən uduşlar (mükafatlar) əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman oyunları ilə əlaqədar aparılan idman mərc oyunlarından, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən uduşlar (mükafatlar) əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində gəlir vergisini hesablayaraq tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və həmin müddətədək “Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi”ni vergi orqanına verməyə borcludurlar. Lotereyaların keçirilməsindən, digər yarışlardan və müsabiqələrdən gəlir (mükafat) rezident şəxslər tərəfindən ödənildiyi halda ödəməni həyata keçirən şəxslər, həmin gəlirlər Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident şəxslər tərəfindən ödənildikdə isə bu gəliri əldə edən şəxsin bank hesabının olduğu yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru ödəmə mənbəyində gəlir vergisi hesablayaraq tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və həmin müddətədək “Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi”ni vergi orqanına təqdim etməyə borcludurlar.

**Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**Yol vergisi:** Yol vergisi üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq “Yol vergisinin bəyannaməsi”ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**Sadələşdirilmiş vergi (Daşınmaz əmlakın təqdim edilməsi üzrə):** Bu fəaliyyət üzrə sadələşdirilmiş vergi üçün hesabat dövrü aydır. Daşınmaz əmlakın təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq “Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi”ni vergi orqanına verməyə borcludurlar.

**Sadələşdirilmiş vergi (Pul vəsaitlərinin nağd qaydada çıxarılması üzrə):** Bu fəaliyyət üzrə sadələşdirilmiş vergi üçün hesabat dövrü aydır. Hüquqi şəxslərə və fərdi sahibkarlara bank hesablarındakı pul vəsaitlərinin nağd qaydada verilməsini həyata keçirən yerli banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru tərəfindən 1 faiz hesablanan vergini vəsaiti alan şəxsin bank hesabından tutulur, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergi dövlət büdcəsinə köçürülür və həmin müddətədək “Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi” vergi orqanına təqdim edilir.

**Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**Sığorta müqaviləsi vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

# Şəhidlik zirvəsinə ucalan- Fədail Nadirov

***Vətən Müharibəsində Azərbaycan Ordusu dünyanı heyrətə gətirən taktiki döyüşləri ilə hərb tarixinə adını qızıl hərflərlə yazdı. Məhz bu uğurlu döyüşlərin nəticəsidir ki, işğalçı ölkə məğlubiyyətini elan etdi. Məğlubiyyət bəyanatının mənfur düşmən tərəfindən imzalanması isə sülhə məcburetmə əməliyyatının uğurla bitməsinin təsdiqi oldu.***



Beləliklə, Ali Baş komandanın rəhbərliyi ilə ordumuz qələbə çaldı. Bu müharibədə müddətdən artıq xidmətdə olan həmyerlimiz Nadirov Fədail Fərhad oğlu da fəallıq göstərmişdir.

Nadirov Fədail 23 iyul 1999-cu ildə rayonumuzun Bədəlli kəndində anadan olmuşdur. Okean Seyidov adına Bədəlli kənd tam orta məktəbini bitirib.

2017-2019-cu illərdə həqiqi hərbi xidmətdə olub. Xidmətdə olarkən verilən tapşırıqları bacarıqla yerinə yetirdiyinə görə hissə komandiri tərəfindən valideynlərinə bir neçə dəfə təşəkkür məktubları gəlib.

Hərbi xidmətdən tərxis olunduqdan bir neçə ay sonra valideynlərinin xeyir-duasını alan Fədail “N” saylı hərbi hissədə müddətli müqavilə əsasında qulluq etməyə başlayır. Xidməti dövründə bir hərbçi kimi böyük etimad qazanır.

27 sentyabr 2020-ci ildə ermənilərin bizə qarşı apardığı ədalətsiz müharibənin ilk günlərində Fədail də bir hərbçi kimi döyüşə yollanır. Cəbrayılın, Füzulinin, Qubadlının azad olunmasında bir döyüşçü kimi fərqlənir. Döyüşlərin birində sol qolundan yaralanır. Bu barədə heç yaxınlarına da xəbər vermir. Müalicə olunduqdan sonra öz təkidi ilə yenidən döyüşə qatılır. Füzulinin “Vodaprom” adlanan ərazisində düşmənlə qızğın döyüşləri olur. Bu ərazi düşməndən azad olunmasına baxmayaraq, Fədail yaralanmış yoldaşlarına köməklik göstərərkən düşmən plemyotundan açılan atəş nəticəsində 26 oktyabr 2020-ci ildə həlak olur. Fədailin atası ilə son danışığı 24 oktyabr 2020-ci il tarixində olub. Hər danışığında qələbənin yaxında olduğunu bildirirmiş. Şəhidimiz Bədəlli kənd qəbiristianlığında dəfn olunub. Ali Baş komandan İlham Əliyevin sərəncamına əsasən “Füzulinin azad olunmasına görə” və “Vətən uğrunda” medalları ilə təltif olunmuşdur.

Söhbət zamanı Fədaillə bağlı xoş sözlərin şahidi olduq:

Okean Seyidov adına Bədəlli kənd tam orta məktəbin direktoru Mürşüd Şeydayev:

Fədail məktəbimizin fəal şagirdlərindən biri olub. Bu ailəyə yaxından bələdəm. Atası Fərhad kişi də məktəbimizin uzun müddətdir ki, gözətçisidir. Bir hərbçi atası kimi oğlu ilə həmişə fəxr edirdi.

Fəxr edirəm ki, məktəbimizin məzunu torpaqlarımızın azadlığı uğrunda öz şücaəti ilə seçildi. Məktəbimizin yaxınlığında Şəhidlərimizin fotolarını əks etdirən “Xatirə lövhəsi” hazırlanmışdır. Hər kəs buradan keçəndə bir an ayaq saxlayıb onların əziz xatirəsini yad edirlər.

Məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Günay Mirzəyeva:

Orta məktəbdə mən də Fədailə fizika fənnindən dərs demişəm və onun sinif rəhbəri olmuşam. O, özünü həmişə nizam-intizamlı aparırdı. Eyni zamanda şagirdlərə örnək kimi göstərilirdi. İdmana həvəs göstərən bir gənc kimi məktəbin bütün tədbirlərində fəal olurdu. Bir sinif rəhbəri kimi onun mənim tərəfimdən xasiyyətnaməsi müsbət olub.

Kənd sakini Saleh Yasinov:

Fədaili uşaq vaxtlarından yaxşı tanıyıram. İstiqanlı və mehriban bir uşaq idi. Kənddə idmana meyilliyi ilə tanınırdı. Bir sakin olaraq idmanda göstərdiyi qalibiyyətləri telefonumda çəkib saxlamışam. Mən həmişə Fədailin nümunəvi bir gənc kimi yetişməsinə inanmışam. O, öz igidliyinə görə ən uca zirvəyə - Şəhidlik zirvəsinə ucaldı.

Allah bütün şəhidlərimizə rəhmət etsin:

***Məhəmməd Bayramov***
***Jurnalistlər Birliyinin üzvü***

# İnşa yazı müssabiqəsi

***Qobustan rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Xocalı faciəsinin 29-cu ildönümü münasibətilə 22-25 fevral 2021-ci il tarixlərində “Xocalı qətliamı əsrin faciəsidir” mövzusunda məktəbli yeniyetmə və gənclər arasında inşa yazı müsabiqəsinə yekun vurulmuşdur:***




**Yeniyetmələr**

I yer - Ağaverdiyeva Türkay (Sündü kənd Mədəniyyət evinin “Bədii qiraət” dərnəyinin üzvü)

II yer - Nəhmətova Xanım (Sündü kənd Mədəniyyət evinin “Bədii qiraət” dərnəyinin üzvü)

III yer - Surxayeva Zümrüd (Qobustan şəhər Mədəniyyət evinin “Bədii qiraət” dərnəyinin üzvü

**Gənclər**

I yer - Ələkbərova Selcan (Çuxanlı kənd tam orta məktəbinin XI sinif şagirdi)

II yer - Hacıyeva Məlahət (Çuxanlı kənd tam orta məktəbinin X sinif şagirdi)

III yer - Abdullayeva Fidan (Sündü kənd Mədəniyyət evinin “Bədii qiraət” dərnəyinin üzvü)

Müsabiqənin qalibləri Covid-19 pandemiyası qaydaları çərçivəsində növbəti ayda mükafatlandırılacaqlar.

*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti
www.qobustan-ih.gov.az

*Baş redaktor:*
Ruslan Şahbazov
Tel.: (050) 524 28 10
(070) 224 28 10

*Ünvan:*
Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet “Son dəqiqə” mətbəəsində çap olunmuşdur
Tiraj: 2000
E_mail:qobustanqazeti@mail.ru